

## Məhəmməd Çalğın

### Təbriz

I

Hansı alverçin Babəkin qollarını satdı?
Hansı dabbağçın Nəsiminin dərisini aldı?
Hansı nanəcib cərrahın anamın dilini kəsdi?
Bizi Azəri səsləyən dilçinin başına daş düşsün
Sənin kəbinini kəsən mollanın ocağına su calanaydı
Səni tərifləyən aşığın səsi bataydı
Sən öz bacını qısqanarkən quyuya saldın
Sən öz qardaşının, bacı söyüşü eşitməsin deyə, canını aldın.

II

Uşaqlığım qonşumuzun quzusu ilə böyüdü
Xatirələrimi otlayırdı evimizin böyründə
Bir gün,
Sallaqların quzunun başını kəsdi
Xatirələrimin başını kəsdilər sallaqların.
Bir gün,
Şirin yuxudaydım gecə yarısı
Atamı əlimdən aldın.
Bir gün,
Anam, ayaq yalın qaçırdı çörəyin ardınca qarın üstündə
Qar, anamın ayaqlarından utanırdı
Sən, utanmırdın Təbriz.

III

Xeyir ola!
Ayna-daraq alırsan
Yaman yetişirsən Gəcilin? kəkəli qızına
Yenə kimin oğlunu yazıq eləyəcəksən Təbriz?

IV

Nə qədər gözəllikdə Yusifə bənzəsən də,
Nə qədər qəmin Yaqubun qəmi qədər olsa da,
Yusifin qardaşları qədər xainsən Təbriz.

V

Anam,
Gündüzlər sənə güllü xalçalar toxudu,
Gecələr, ayaqqabı tikdi.
Anamın,
Nə ayaqlarına başmaq geydirdin
Nə məzarının üstünə gül qoydun.
Atam,
Gündüzlər sənə alma dərdi ağacdan,
Gecələr bağ suvardı.
Atamın,
Nə ağzına bir dilim alma qoydun
Nə məzarının başında bir ağac əkdin.
Mən,
Gündüzlər sevdiyim qızları gəlin köçürtdüm yad qapısına,
Gecələr şeirlər yazdım
Mənim...
Mənim ahım səni tutsun Təbriz.

VI

Bir gün,
İtə çörəyimi verdim
Barmağımın tuşundakı o küçənin başında.
Bir gün,
O qırmızı dağ uçurdu
Dağa kürəyimi verdim.
Bir gün,
Küçəndən keçirdim bir axşam üstü
Mənə bir göz vurdun
Sənə ürəyimi verdim.
İt,
Qapımda çörəyimi qoruyur illərdir.
Dağ,
Arxamda kürəyimi qoruyur illərdir.
İllərdir,
Ürəyimə xəncər soxursan Təbriz.

VII

Nə qədər səni İsfahana vermirdilər
Ayrılıq şeiri oxuyurdun hər səhər-axşam.
Nə qədər, Əmirəqız? barışmırdı Tehran ilə
Vətən şeiri oxuyurdun hər səhər-axşam.
Səni İsfahana verəndən sonra...
Əmirəqız Tehran ilə barışandan sonra...
Sənin şairliyinə nə gəldi Təbriz?

VIII

Hansı dildə sənə yalvarmalıyıq?
Mahnılarımızı hansı yurda köçürməliyik?
Rəqslərimizdə qollarımız göylərdə qalıb
Şeirlərimizi hansı qəbiristanlıqda basdırmalıyıq?
Bir gün, "İranşəhri"lərin arxamca hürürlər
Deyirəm, qurdun ardınca it hürər, olsun!
Bir gün, satqınların məni küçəndə döyürlər
Deyirəm, igidə yaralı gərək, boş ver!
Hər gün səni illərdir yıxırlar
Yıxılmaq ayıb olmasa da
Yıxılıb yatmaq ölümdür, Təbriz.

IX

Haydı!
Buxçanı bağla
Səni "Nobar hamamı"na götürürəm indi.
Keç içəri, ya Allah
Məşhədi Rəcəb səni kisələsin bir.
Oturmuşam hamamın qapısında
Bu şeirin ətəyində oturmuşam.
-Yuyundun gəldin?
Afiyət olsun.
Əlimdən tut, qıvraq ol!
Turan xanım bizi qonaq çağırıb

* Gəcil: Təbrizdə məşhur məkan adıdır. "Gəcil qapısı" qədim Təbrizin səkkiz darvazasından birinin adı imiş.
* Təbrizdə məşhur məhəllə adıdıdır.